- В этот период Саламзаде впервые задумывается над теоретическим осмыслением творческих проблем современной азербайджанской живописи и как исследователь-искусствовед, занимается анализом художественных традиций прошлых столетий. Статьи и выступления художника в периодической печати проливают свет на целый ряд малоизученных проблем искусства Азербайджана дореволюционного периода.

- Во второй половине 30-х годов начинает формироваться художественный метод и почерк живописца, оттачиваются техника и живописное мастерство Салама Саламзаде.

- 1950-е годы – интересный и плодотворный период в творческой биографии художника. В эти годы Саламзаде становится общепризнанным портретистом, создавшим огромное количество удачных образов деятелей культуры и труда. Несмотря на то, что художник по-прежнему работает в различных жанрах живописи, портрет по-прежнему остается ведущим, определяющим жанром в его творчестве.

Во второй главе диссертации **«Развитие реалистического характера содержания и формы в творческом наследии Салама Саламзаде во второй половине XX века»** так же состоящий из двух разделов рассказывается о творческих успехах художника в последующих этапах его творчества и дается обобщенный анализ его работ и достижений в азербайджанской живописи.

Особенность творчества Саламзаде 60-х годов состоит в том, что многие свои произведения художник создавал за пределами Азербайджана. В эти годы Саламзаде ездит в многочисленные творческие командировки по странам Зарубежья.

Самые значимые события и достижения в творчестве Саламзаде были связанны с его поездками по странам Арабского Востока. В период с 1961 года по 1974 год художником была создана самая масштабная серия картин, посвященная жизни и истории арабских народов, их традициям, борьбе за независимость.

В 50-е годы творческий диапазон Саламзаде расширяется как никогда раньше. Художник пробует свои силы во всех жанрах живописи, в каждом из них создает неповторимые шедевры, уникальные эпизоды, делавшие его творчество интересным и привлекательным. Многочисленные произведения Саламзаде в разных жанрах говорили о его большом мастерстве и профессионализме, характеризовали его как личность с широкими взглядами и большими возможностями. Однако, несмотря на творческие поиски в разных жанрах, портреты занимают доминирующее положение и остаются лучшими произведениями как в творчестве самого Саламзаде, так и во всей азербайджанской портретной живописи.

Портрет Мехти Гусейна кардинально отличается от других образов современников, созданных художником. Различие проявляется в первую очередь в выборе нейтрально-грязного белого фона, что было не характерно для стиля Саламзаде, любившего изображать своих героев на темном фоне. Привлекают внимание положение и поза писателя, показанного прислонившегося к стене и облокотившись на подушку. Композиция картины привлекает своей простотой, однако именно эта простота помогает ощутить сложный духовный мир писателя-реалиста. Прост и колористический строй портрета. В этой картине художник вновь использует свой излюбленный прием, и для колористического решения полотна использует локальные чистые цвета. Основные доминирующие цвета картины составляют грязно-белый цвет фона, красный ковер с национальным геометрическим узором, темно-синяя рубашка писателя, которая привлекает внимание зрителя. Живописец показал писателя с раскрытой газетой в руках, в момент отдыха, что наглядно видно по полулежащей позе и свободной манере писателя.

Подводя итоги I главы можно сделать следующие заключения:

- 30-е годы являются самыми тяжелыми и противоречивыми в творческой судьбе и в личной жизни художника. В результате экспериментов с различными творческими методами и стилями, художник приходит к реалистическому методу отображения действительности;
- В работах художника 30-х годов преобладали декоративизм, плоскостность композиции, определенный примитивизм и яркий



«Стачка в Балаханах» (1932г.), художник показывает пафос борьбы, напряженное противостояние, подчеркивает главенствующее положение народа, его право на свободу, независимость и счастье, готовность достичь свободы любыми средствами – путем стачек и митингов, и даже вооруженного восстания.

Интересен тот факт, что до 1938 года Саламзаде, как и многие другие молодые художники, очень редко обращался к портретному жанру. В своих статьях, докладах и выступлениях живописец прямо заявлял об этом и утверждал, что этот факт является большим недостатком для азербайджанской живописи.

Чтобы решить эту проблему, Саламзаде начинает создавать галерею портретов своих современников, которые впоследствии будут считаться лучшими в его творчестве. Портреты, созданные Саламзаде стали своеобразной «визитной карточкой» художника.

Портрет является очень сложным жанром в живописи. Помимо внешних черт художник должен показать внутренний мир, состояние души героев, описать психологический портрет своих персонажей.

Отражение позитивного образа изображаемого было основной задачей портретиста Саламзаде. Художник всегда видел в своих героях пример для подражания. Поэтому в героях своих картин Саламзаде выделял такие качества как благородство, человеколюбие, бесстрашие и непоколебимость. В этих смуглых, порой суровых, но благородных лицах художник видел своеобразный, «саламовский» эталон гуманизма и идеальной советской личности.

О стремлении Саламзаде к созданию композиционных портретов, имеющих определенную сюжетную основу, свидетельствует выдержанный в строгой цветовой гамме портрет композитора Узеира Гаджибекова. Саламзаде заканчивает работу над этим портретом в 1941 году. Портрет У.Гаджибекова был создан ко времени появления других знаменитых портретов видных представителей искусства и литературы: М.Ш.Вазеха, М.Ф.Ахундова, А.Бестужева-Марлинского и др. Создание такого количества выразительных работ за короткий срок, говорит о высоком мастерстве художника и профессиональном овладением им навыков реалистической живописи. В этих работах нет тех ошибок, свойственных ранним портретам Саламзаде. Остаются позади схематизм, скованность, цвета становятся более свободными.

Художник изобразил У.Гаджибекова в полном расцвете творческих сил. Особенно поражает проницательный взгляд композитора, сложившего перед собой сжатые руки. В этой позе Узеир Гаджибеков выглядит более величественно, и это полностью соответствовало его статусу – основателю школы азербайджанской национальной классической музыки.

Самым ярким произведением из серии работ, написанные в годы Второй мировой войны, является знаменитая картина художника «Портрет Сидги Рухулла» (1944г.). Этот портрет является не только лучшим произведением этого периода, но и одним из шедевров портретной живописи Азербайджана. «Портрет Сидги Рухулла» – крупное достижение в творчестве С.Саламзаде. В этом портрете художник достиг больших высот в складывающихся традициях национальной реалистической живописи.

На основе изучения достижений знаменитых портретистов прошлого и благодаря накопленному опыту художник сумел создать композиционный портрет прославленного мастера сцены. Артист изображен в своей комнате сидящим с книгой в руке перед открытым окном, откуда раскрывается вид на город. Падающий из окна свет образует на лице изображенного персонажа резкие светотеневые контрасты. Это придает лицу и всей фигуре большую рельефность. Вдумчивое и проникновенное выражение его глаз говорит о напряженной интеллектуальной работе[3].

Несмотря на кажущуюся атмосферу спокойствия, картина отличается своеобразным динамизмом. Этот динамизм достигнут благодаря диагонально пересекающим направлениям потока света из окна, и позе Сидги Рухулла сидящего повернувшись слева направо. Саламзаде использовал в этом полотне приемы мастеров барокко.

Интересны обстановка и интерьер работы. Обстановка соответствует основной идее и замыслу картины – подчеркнуть внутренний духовный мир, гуманизм личности Сидги Рухулла, отразить его внешние черты.



[3] Искусство Советского Азербайджана. Живопись. Графика. Скульптура. Под общ. Ред. Езерской Н.А., Керимова К., Наджафова М.:1970, с.62.

В конце 40-х годов художник не ограничивается только изображением героев войны, труда, простых колхозников и рабочих. Саламзаде продолжал изображать представителей интеллигенции, и эти портреты отличались особой аурой и теплотой, интересным композиционным и колористическим решением. Одним из таких, созданный в 1948 году, стал «Портрет первой азербайджанки-кинорежиссера Гамяр Саламзаде».

Портрет Гамяр ханум отличается особым композиционным построением. Однако самым главным отличием является цветовое решение картины, в котором преобладали темные и холодные цвета. На темном фоне художник показал один из самых ярких женских образов в азербайджанском изобразительном искусстве. Магнетический взгляд героини полотна приковывает зрителя силой своего женского обаяния. Особенно поражают неповторимый блеск глаз Гамяр ханум. Живописец с мастерством показал в обычных черных глазах радость жизни, теплоту души и любовь. Именно этот блеск глаз делает взгляд Гамяр ханум проницательным, добрым и порой загадочным.

В 50-е годы портретная живопись Саламзаде развивалась и совершенствовалась, приобретая новые живописно-пластические качества. Художник изображает своих героев или в минуты раздумий, или в процессе их активной деятельности или творчества, раскрывает душевную красоту, свойственную людям труда.

В 50-е годы художником было создано впечатляющее количество композиционных, сюжетно-бытовых и тематических работ, посвященных в большинстве случаев профессиональной деятельности трудящихся. Эти работы отражают различные сюжеты из профессиональной деятельности рабочих и колхозников, отдельные моменты активного рабочего дня, время отдыха и обеда.

Основными работами в этом жанре являлись картины, посвященные теме нефти и нефтяникам. Одной из довольно интересных работ в этом жанре представляется полотно «Молодежная бригада бурильщиков» (1957г). Художник показал в картине разгар рабочего дня бригады нефтяников, начинающих подготовку к бурению скважины.

*Sevindj Mikayil Housseynova*

**The Set Design of the Azerbaijan State Theatre of Musical Comedy**

## S U M M A R Y

The thesis is dedicated to the establishment, formation, paths or development and the interpretation of the present state and existing problems in the set design of the Azerbaijan State Theatre of Musical Comedy.

The research consists of the Introduction, three chapters, conclusion, the list of citations and the illustration album. The review of the actuality, the level of the investigations, and the subject of the research is considered in the Introduction. Also the basic cause and the goals, scientific novelty and the practical value of the research are identified, some information about the approbation, structure and volume of the thesis are given here.

The first chapter – "The Phases of the Development of the Art of Set Design of the Azerbaijan State Theatre of Musical Comedy" considers the types of the set design of the musical performances and also the ways of formation and development of the art of set design at the given theatre during 1920-1940s. the activity of stage designers A.Azimzadeh, R.Mustafayev, A.Sultanov, G.Mustafayev. A.Abbasov, etc.

The second chapter – "The Principal Problems of the Development of the Set Design during the 1940-1980s" deals with basic trends of the formation of the theatre in 1940-80s, reflected in the works of F.Ghussak, S.Sharifzadeh, I.Akhundov and following the example of such prominent representatives of easel painting as A.Safarov, B.Mirzazadeh, the artistic peculiarities of the stage designs in 1960-85s are analyzed.

The third chapter – "New Trends of the Set Design at the Azerbaijan State Theatre of Musical Comedy Today" reviews the design of performances, staged at the theatre during the period of 1985-2012, and analyses the activity of the artists-designers I.Mammadov, N.Beykishiyev, E.Kurbanov, N,Samedova.

The Conclusion presents the summary.

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

Azərbaycanın milli mədəniyyət və incəsənətinin ən fəal tərkib hissəsi olan teatr-dekorasiya sənəti – tərtibat, geyim-əlbisə, qrim, işıq, mebel, butaforiya və s. vasitəsilə səhnə tamaşasının əyani obrazını yaradır. Tədqiqatçılarımız teatr tariximizi milli sənət təfəkkürümüzün hər hansı bir janrla bağlılığını vurğulayırlar. Həmin janrlar vasitəsilə incəsənətin sintetik növlərindən olan teatrda tamaşanın bədii tərtibatı dramaturji əsərin ideya məzmunun açılmasında mühüm rol oynayır. Burada hadisələrin cərəyan etdiyi dövr yerli və milli kolorit səhnədə canlandırılır, səhnə əsərin janrına və üslubuna uyğun dekorasiya, əlbisə, işıq və s. bədii təsvir və ifadə vasitələrindən istifadə edərək obrazların fərdi xarakteristikası daha dolğun nəzərə çatdırılır.

Təqdim edilmiş dissertasiya mövzusunda da bilavasitə teatr-dekorasiya sənətinin bu kimi əsas və vacib olan şərtləri və xüsusiyyətləri, həmin sənətin tərkibində aparıcı meyarların diqqətə çatdırılması, maddi və mənəvi problemlərin, səhnə tərtibatının ideya məzmununun, estetik təcəssümünün dolğun ifadəsinin təzahürlərinin araşdırılması, düzgün mənimsənilməsi üzərində qurulmuşdur. Azərbaycanda teatr-dekorasiya sənətinin inkişaf tarixi, zaman və məkan həllinin qanunauyğunluqlarının və rəssam işinin təhlili, bədii tənqidi və Azərbaycanda müasir teatrın hansı səviyyədə olması, millilik və ənənəvilik çərçivəsində mənəviyyatın qorunub saxlanılması, gələcək nəsillərə ötürülməsi, bundan başqa novatorluğun təmayülləri, dünya teatr-dekorasiya sənəti ilə müqayisəli təhlili, geniş əhatə olunmuş empirik material hal-hazırkı mövzunun aktuallığını təşkil edir.

Tamaşa tərtibatının baş iştirakçısı, ideya təcəssümcüsü, qeyd olunan bədii ifadə vasitələrinin yaradıcısı kimi, şübhəsiz, teatr rəssamı çıxış edir. O, ideya, eskiz müəllifi, tamaşanın tərtibatı layihəsinin müəllifidir, onun yaradıcılığı gələcək tərtibatın bədii əsasını təşkil edir. Məhz buna görə teatr tamaşalarının bədii tərtibatı problemi ölkəmizin müstəqillik dövrünə qədəm qoyduğu dövrdə milli səhnə sənətinin inkişafı baxımından çox aktualdır. Bu problemin həlli, əslində tamaşa tərtibatının ideya-proyektinin müəllifi olan teatr rəssamlarının yaradıcılığının mükəmməl tədqiqi olmadan mümkün deyil. Bununla əlaqədar Azərbaycanın aparıcı musiqili teatrlardan biri olan və artıq əsrdən artıq bir müddətdə klassik və müasir komediya və müzikl tamaşalarını səhnəsində canlandıran Azərbaycan Dövlət Musiqili Komediya Teatrı rəssamlarının yaradıcılığı bu sənətin elmi araşdırılması üçün zəmin yaradır.



**Mövzunun aktuallığı.** Mövzunun seçimi səhnədə geniş meydan tələb edən rəqslərlə müşahidə olunan musiqili tamaşaların tərtibatı probleminin kifayət qədər öyrənilməməyi ilə bağlıdır. Azərbaycan Dövlət Musiqili Komediya Teatrının müasir dövrə təsadüf edən və tamaşaların bədii tərtibatı ilə ölkəmizi respublika xaricində uğurla təmsil edən tərtibatçı-rəssamların yaradıcılığı xüsusi aktuallıq təşkil edir.

Əfsus ki, Azərbaycan sənətşünaslığında teatr-dekorasiya sənətinin inkişafının müasir dövrü, o cümlədən Azərbaycan Dövlət Musiqili Komediya Teatrı rəssamlarının 1985 – 2012-ci illəri əhatə edən bədii tərtibat yaradıcılığına tamamilə toxunulmayıb və bu dövr respublika teatr-dekorasiya incəsənətinin tarixində “ağ ləkə” olaraq qalmaqdadır. Onu da qeyd etmək lazımdır ki, bu kimi boşluqların tədqiqi Azərbaycan teatr-dekorasiyasının dolğun mənzərəsini yarada bilər, bu da Azərbaycanın bu sənət növünün əsas inkişaf mərhələlərinin və təmayüllərinin, eləcə də tərəqqisinin müəyyən edilməsinə gətirib çıxara bilər. Bu nöqteyi-nəzərdən müasir sənətşünaslığın qarşısında Azərbaycan Dövlət Musiqili Komediya Teatrının teatr-dekorasiya sənətinin tədqiqi və təhlili, teatrın yaranması dövründən bu günə kimi burada çalışan rəssamların yaradıcılığını araşdırmaq, əldə olunmuş materialı həm tarixi, həm də yaradıcılıq müxtəlifliyinin konkret bədii-stilistik aspektdə nəzərdən keçirmək kimi aktual məsələlər durur.

Sovet dövlət quruluşunun süqutundan və Azərbaycanın müstəqilliyinin bərpa olunduğundan sonra, incəsənətin digər sahələrində olduğu kimi, Azərbaycan teatr sənətində, o cümlədən səhnə quruluşlarının bədii tərtibatında da bu sənət növünün dirçəlişinə gətirən köklü dəyişikliklər baş verdi. Son 20 ildə Azərbaycan səhnəsində əhəmiyyətli irəliləyişlər nəzərə çarpır. Müəyyən nailiyyətləri həm rejissor quruluşlarında, həm də tamaşaların bədii-dekorasiya tərtibatında görə bilərik. Teatrın bu son tamaşalarının bədii tərtibat işlərinin tədqiqi və təhlili də dissertasiyanın aktual məsələləri sırasına daxil olunub.

Zəngin repertuara malik Azərbaycan Dövlət Musiqili Komediya Teatrının səhnəsində vaxtilə teatrın təməlində duran Üz. Hacıbəylinin operetta janrında yazdığı hər üç komediya – “O, olmasın, bu olsun", “Arşın mal alan” və “Ər və arvad” komediyaları teatrın simasını təşkil edir.

2010-cu ildə Azərbaycan Dövlət Musiqili Komediya Teatrı 35-dən çox kollektivin təmsil edildiyi Beynəlxalq musiqili teatrları assosiasiyasının tam hüquqlu üzvü olmuşdur. Bu da teatrın Rusiya Federasiyası Bolşoy teatrı, Sankt-Peterburqun Mariinski teatrı, K. Stanislavski və V. Nemirovic-Dançenko ad. Moskva akademik musiqili teatrı, Ukrayna, Belarus, Qazaxıstan və MDB-nin digər ciddi teatr

*Севиндж Микаил кызы Гусейнова*

## Сценография Азербайджанского Государственного Театра Музыкальной Комедии

### Р Е З Ю М Е

Диссертация посвящена становлению, формированию, путям развития и освещению нынешнего состояния и существующих проблем в сценографии Азербайджанского Государственного Театра Музыкальной Комедии.

Исследование состоит из введения, трех глав, заключения, списка используемой литературы и иллюстративного альбома. Во «Введении» рассматриваются актуальность, степень изученности, объекты и предмет исследования. Определены основные цели и задачи, научная новизна и практическая ценность исследования, даются сведения об апробации, структуре и объеме диссертации.

В I главе – «Традиции формирования театрально-декорационного искусства Азербайджанского Государственного Театра Музыкальной Комедии» рассматриваются своеобразие сценографии музыкальных спектаклей, а также театрально-декорационные особенности спектаклей, поставленных в 1920-40-е годы и художественно-оформительскую деятельность А.Азим-заде, Р.Мустафаева, А. Султанова, Г.Мустафаева, А.Аббасова и др.

Во II главе – «Основные направления развития сценического оформления в Театре Музыкальной Комедии в 1940-1980-е годы» рассматриваются новые тенденции театрально-декорационного искусства в 1940-60-х годах, нашедшее отражение в творчестве Ф.Гусака, С.Шарифзаде, И.Ахундова, а также на примере творчества ведущих станковых художников Азербайджана А.Сафарова, Б. Мирзазаде анализируются художественные особенности сценических постановок 1960-85-х годов.

В III главе – «Новые тенденции художественного оформления Азербайджанского Государственного Театра Музыкальной Комедии в современный период» анализу подвергаются художественное оформление спектаклей, поставленных на сцене театра в 1985-2012-х годах, а также театрально-декорационное творчество И.Мамедова, Н.Бейкишиева, Э.Курбанова, Н.Самедовой.

В Заключении подводятся итоги исследования.



əsərinin əsasında duran hər bir mövzunun, vəziyyətin, bu və ya digər motivlərinin, süjetli toqquşmaların nəql edilməsində hədsiz imkanları ilə şərtləndirilirdi;

- 80-ci illərin teatr-dekorasiya sənətində baş verən təkamül prosesləri bədii yaradıcılığın tükənməz, mənəvi-əxlaqi mənbəyi olan Azərbaycan xalqının milli estetikasına müraciəti ilə əsaslanırdı. Teatr rəssamlarının bədii obrazın vizuallaşmasına əsas elementlərini təşkil edən məna simvolikaya və metaforaya müraciəti o dövrün yerli səhnəqrafiyasının səciyyəvi cizgisi olmuşdur;

- ötən əsrin son onilliyində ənənə probleminin yeni maraq dalğası aydın görünür. Onun aktuallığı, digər onilliklərdən fərqli olaraq, geosiyasi və ictimai-mədəni faktorlarla müəyyən olundu. 90-cı illərin konteksti onun təfsiri üçün yeni estetik əsasları müəyyən etdi ki, onlar artıq təkcə “milliliyin” stilistik çərçivələri ilə məhdudlaşa bilmirdi. Bu mərhələdə milli obrazlara bağlılıq təsvir üsullarının spektrinin genişlənməsinə təsir etdi ki, bu da öz növbəsində fərdi üslubların müxtəlifliyində əksini tapdı;

- müasir dövrdə müşayiət olunan səhnə tərtibatının bədii üslublarının çeşidliliyinə meyl teatr-dekorasiyanın incəsənət kimi ontoloji surətdə yüksək səviyyəsini nümayiş etdirir. O, nəql etmir – göstərir, hesablamır – qurur, fraqmentlərlə deyil, bədii-təsvir vasitələrin kaskadı ilə düşünür. Əsas istiqamət bu cür teatr-dekorasiya sənətinin yaranması oldu ki, onun da vizual “kodları” müasir Azərbaycan rejissura tərəfindən məna dəyərləri dərəcəsinə qaldırmışdır.

**Dissertasiyanın mövzusu üzrə aşağıdakı məqalələr çap olunub:**

1. Azərbaycan Musiqili Komediya Teatrının teatr-dekorasiya sənətinin təşəkkülü // “İncəsənət və mədəniyyət problemləri”, №3-4 (25-26), Bakı, 2008, s. 235-240.
2. Творчество Исмаила Мамедова в Азербайджанском театре музыкальной комедии // «Национальные образы мира в художественной культуре». Материалы Международной конференции. Нальчик, 8-9 ноября 2010, с. 398-400.
3. Əməkdar rəssam İsmayıl Məmmədovun teatr-dekorasiya yaradıcılığı // “Mədəniyyət dünyası”. XVI, Bakı, 2008, s. 314-319.
4. Формирование сценографии оперетты в азербайджанском искусстве // «Культура народов Причерноморья», №263 – Симферополь, 2013, 0,5 п.л.
5. Səhnəqrafiya problemlərinin teatr prosesinin inkişafına və təkmilləşməsinə təsiri (Azərbaycan Dövlət Musiqili Komediya Teatrı timsalında) //“Mədəniyyət dünyası”. XXV, Bakı, 2013, s. 185-190.
6. Müasir dövrdə Azərbaycan Dövlət Musiqili Komediya Teatrının tamaşalarının bədii tərtibatında yeni təmayüllər // “Təsviri və dekorativ-tətbiqi sənətlər məsələləri”. №2 (12), Bakı, 2013, s. 58-67.
7. Teatr rəssamı Həsənağa Mustafayevin teatr-dekorasiya yaradıcılığı // “Elmi əsərlər”, №15, Bakı, 2013, s. 180-186.
8. 1940-cı illərdə Musiqili Komediya Teatrının səhnəqrafiyasının formalaşması // “Elmi əsərlər”, №16, Bakı, 2013, 0,5 ç.v.

kollektivləri ilə bir sırada dayanmağa imkan yaratdı.

2013-cü ilin aprel ayından Azərbaycan Dövlət Musiqili Teatrı adını daşıyan teatrın Assosiasiyadakı üzvlüyü ona digər ölkələrin gənc istedadlı mütəxəssisləri, o cümlədən rejissorları və tərtibatçı rəssamları ilə əməkdaşlıq etməyə imkan yaradır ki, bu da teatrın işinə yeni cərəyanların, üslubların gəlməsinə təkan verir.

Beləliklə, müasir Azərbaycan Dövlət Musiqili Teatrın səhnəqrafiya sahəsindəki vəziyyətinin ətraflı işıqlandırılması müasir Azərbaycan mədəniyyətinin dirçəlməsi və inkişafı kontekstində aktuallıq kəsb edir. Bu sahədə müsbət və neqativ təcrübənin elmi dərki səhnəqrafiya sənətinin inkişafına təkan verə bilər.

**Mövzunun işlənmə dərəcəsi.** XIX əsrin sonlarından başlayaraq müasir dövrə qədər Azərbaycan teatr-dekorasiya sənəti böyük tarixi inkişaf yolu keçmişdir və müxtəlif dövrlərdə həm teatr, həm də teatr-dekorasiya sənəti tarixinə dair bir çox tədqiqatçılar – teatrşünas və sənətşünaslar müraciət edərək monoqrafiyalar dərc etdirmiş, araşdırmalar apararaq bu sahədə müəyyən elmi nailiyyətlər, nəticələr əldə etmişlər. Ayrı-ayrı müəlliflərə aid olan həmin elmi mövzular müəyyən bir dövrü, konkret mərhələni öyrənən, eyni zamanda Azərbaycanda mövcud olan teatrlarda ərsəyə gətirdiyi işləri ilə hər zaman maraq dairəsinə səbəb olan dramaturqların, aktyorların, rəssamların həyat və yaradıcılığını ətraflı tədqiq edən səviyyəli monoqrafiyalar yazılmış və geniş oxucu kütləsinə təqdim edilmişdir. Teatr tarixini əks etdirən həmin monoqrafiyalardan Mehdi Məmmədovun “Teatrlar, aktyorlar, tamaşalar”[1], Cəfər Cəfərovun “Azərbaycan dram teatrı”, “Azərbaycan teatrı (1873-1973)”[2], İnqilab Kərimovun “Azərbaycan dram teatrı”[3], “Azərbaycan dramaturgiyasının estetik problemləri”, İlham Rəhimlinin “Azərbaycan Milli Dram teatrı”, “Səhnə, ekran, müasirlik”, “Azərbaycan teatr tarixi”[4], “Sənətimizin fədailəri”, “3 əsrin 130 ili” [5] və s., Məryəm Əlizadənin “Teatr: seyr və sehr” [6] və s. bu kimi yazılar dərc edilmişdir. Lakin adı çəkilən bu tipli monoqrafiyalarda teatr-dekorasiya sənətinə çox az yer ayrılmış, bəzilərində isə demək olar ki, teatrın ayrılmaz qolu olan bu

[1] Məmmədov M. Teatr düşüncələri – Bakı, 1977.
[2] Cəfərov C. Azərbaycan teatrı (1873-1973) – Bakı, 1974, 314 s.
[3] Kərimov İ. Azərbaycan teatrı – 125 – Bakı, 2005, 112 s.
[4] Rəhimli İ. Azərbaycan teatr tarixi – Bakı: Çaşıoğlu, 2005.
[5] Rəhimli İ. 3 əsrin 130 ili – Bakı, 2003.
[6] Əlizadə M. Teatr: seyr və sehr – Bakı: Elm, 1998, 252 s.



sahəyə heç toxunulmamışdır. Təbii ki, bu, mövzunun konsepsiyasından irəli gəlirdi. Lakin sırf teatr-dekorasiya sənətini əhatə edən, ayrıca teatr rəssamlarından danışılan monoqrafiyalar, elmi dissertasiyalar, məqalələr də vardır. Məsələn, Dilarə Səfərəliyevanın “Teatr rəssamı Bədurə Əfqanlı”, Nurəddin Həbibovun “Sadıx Şərifzadə”, “Mikayıl Abdullayev”, Mürsəl Nəcəfovun “İzzət Seyidova”, “Əzim Əzimzadə”, “Tahir Salahov”, Adil Qazıyevin “Xalq rəssamı Əzim Əzimzadə”, Natalya Miklaşevskayanın “Rüstəm Mustafayev”, Hüseynağa Hüseynovun “Azərbaycan tarixi dramları və onların səhnə təcəssümü (1898-1970-ci illər)”[7], yenə onun “Müasir Azərbaycan dramaturgiyası və onun səhnə təcəssümü (1960-1970-ci illər)”[8], axırıncı işlərdən Fəridə Quliyevanın 2005-ci ildə müdafiə etdiyi “Hüseyn Cavid pyeslərinin səhnə tərtibatı (Azərbaycan Akademik Dram Teatrının tamaşaları əsasında)”[9] və s. əsərlər vardır ki, burada sırf bədii tərtibat, estetik səhnə mahiyyəti, yenilik, gözəllik, aktuallıq, bədii zövq haqqında, o cümlədən teatrın maddi və mənəvi problemlərindən danışılır, ayrıca rəssamların yaradıcılığına toxunulur.

Azərbaycan teatrının təşəkkülü, onunla bərabər Azərbaycanda dekorasiya sənətinin tipologiyası problemlərinə D.A. Səfərəliyevanın “Sovet Azərbaycanının teatr-dekorasiya sənəti” (Bakı, «Azərnəşr», 1968)[10] monoqrafiyası həsr olunub ki, burada Azərbaycan teatrının (o cümlədən dekorasiya sənətinin) əski dövrlərdən başlanmış 1941-ci ilə kimi olan dövrü araşdırılır. S.İ. Şükurovanın “Azərbaycan sovet dövrü teatr-dekorasiya sənəti (1946 – 1985-ci illər)” (Tbilisi, 1990)[11], eləcə də L.İ. Atakişiyevanın «Azərbaycan musiqili teatrının qarşılıqlı əlaqələrinin tarixi problemləri” (Bakı, 2004)[12], S.R. Sadıxbəyovanın “ Azərbaycan Opera və Balet

[7] Hüseynov H. Azərbaycan tarixi dramları və onların səhnə təcəssümü (1898-1970-ci illər) – Bakı, 1996.
[8] Hüseynov H. Müasir Azərbaycan dramaturgiyası və onun səhnə təcəssümü (1960-1970-ci illər) – Bakı, 1998.
[9] Quliyeva F. Hüseyn Cavid pyeslərinin səhnə tərtibatı (Azərbaycan Akademik Dram Teatrının tamaşaları əsasında). Namiz. diss. avtoreferatı, Bakı, 2005.
[10] Səfərəliyeva D.A. Sovet Azərbaycanının teatr-dekorasiya sənəti – Bakı: Azərnəşr, 1968.
[11] Şükurova S.İ. Azərbaycan sovet dövrü teatr-dekorasiya sənəti (1946-1985-ci illər). Namiz. diss. avtoreferatı – Tbilisi, 1990.
[12] Atakişiyeva L.İ. Azərbaycan musiqili teatrının qarşılıqlı əlaqələrinin tarixi problemləri. Namiz. diss. avtoreferatı – Bakı, 2004.

iştirakçılardan təkcə məsələlərin məğzini anlamağa deyil, səhnədə əks olunacaq şəklə səmimi və həyəcanlı münasibət tələb edir.

**Nəticədə** tədqiqata yekun vurulur:

- Azərbaycan Dövlət Musiqili Komediya Teatrının teatr-dekorasiya sənətinin yaranması dövründən bu günə kimi baş verən təkamül proseslərinin məntiqini düzgün mənimsəmək üçün yeni metodoloji yanaşma prioritet təşkil etmişdir;
- XX əsrin əvvəlində Azərbaycan mədəniyyətində baş verən başlıca ictimai-iqtisadi və siyasi islahatlar nəticəsində əlavə edilmiş bədii təcrübənin mənimsənilməsi kimi dialoji strategiyanın səciyyəvi xüsusiyyətləri meydana gəldi;
- Etik və estetik sistemlərinin məna-dəyər prinsiplərini saxlayan Azərbaycan mədəniyyəti bədii təfəkkürün "digər"i ilə qarşılaşması zamanı güclü transformasiyası şəraitində digər, daha mürəkkəb səviyyədə inkişaf etməyə başladı;
- XX əsrin əvvəlində qeyri milli təcrübənin mənimsənilməsində peşəkar teatr-dekorasiya sənəti sahəsində ictimai-mədəni islahatlarının pozitiv faktoru oldu. Çoxəsrlik teatr tarixi keçən yüzilliyin bir neçə onilliklərində sıxılmışdır. Bu nəhəng təkamül sıçrayışı Azərbaycan Dövlət Musiqili Komediya Teatrının teatr-dekorasiya sənətinin genezisini, onun dinamikasını, inkişaf perspektivlərini müəyyən etmiş və ümumdünya mədəni prosesinə üzvü surətdə nüfuz etməsinə təkan verdi;
- Azərbaycan Dövlət Musiqili Komediya Teatrının teatr-dekorasiya sənətinin ilk dövrü şərti-ümumiləşdirilmiş hadisə məkanının nümayəndəliyinə yönəlmişdir ki, bu da təşəkkül dövrünün təsvir dilinin məhdudluğunun nəticəsi idi. Lakin artıq növbəti onillik yeni bədii təcrübənin və yeni mövqeyə çıxışın tezliklə mənimsənilməsi dövrü oldu;
- XX əsrin 40-cı illəri Musiqili Komediya Teatrının teatr-dekorasiya sənətinin ən aktual prinsiplərini incəsənətin kütləvi təşviqat formaları təşkil edirdi. Lakonizm, ifadə vasitələrinin ciddi seçimi, plakatlılıq elə bir təsvir üsuluna çevrildi ki, onun vasitəsilə rəssamlar vətənpərvərlik ideyasını daha parlaq və daha asan yolla izhar etməyə nail olurdular;
- 50–60-cı illərdə tamaşa tərtibatının yeni təmayüllərini həyati gerçəklik prinsipləri və konkret hadisə məkanının göstərilməsi olmuşdur. Hadisə məkanının tarixi gerçəkliyinin nümayəndəliyinə meyl teatrın səhnəsində dekorasiya süjetlərinin genişləndirilməsinə səbəb oldu;
- 50 – 60-cı illərdə teatr-dekorasiya rəngkarlığı bədii obrazının açılmasında və incəsənətin bütün növlərinin Musiqili Komediya Teatrının tamaşaları məkanında ahəngdarlığın təyinedici faktoru olmuşdur;
- 70-ci illərin teatr-dekorasiya sənəti əsərin strukturuna kəsərli nüfuzuna yönəlmişdir və səhnə hadisəsinin şəkillərlə deyil, tamaşanın bütövlükdə açılması ilə bağlı idi. Bu "aktiv səhnəqrafiya" sisteminin bədii-stilistik universallığı lə, dramaturji



komediya janrında tamaşalarla çıxış edən teatr 200 illiyi qeyd edilən rus yazıçısı N.V.Qoqolun "Evlənmə" komediyası ilə bir sıçrayış edərək stereotiplərdən qurtuldu. Musiqili Komediya Teatrının hazırladığı N.V.Qoqolun "Evlənmə" tamaşası Mədəniyyət və Turizm Nazirliyinin "2011-ci ilin ən yaxşı səhnə əsəri" kimi yüksək "Zirvə" mükafatına layiq görülmüşdür. Rəssamın tamaşaya hazırladığı geyim nümunələri XIX əsr rus əyalət tacirləri və meşşanlarının geyiminə müvafiq hazırlanmışdır ki, onların əsas xüsusiyyətini rus xalq geyiminin Avropa moda elementləri ilə forma uyğunluğu təşkil edirdi. N.Səmədova XIX əsr rus geyiminin silki xarakterini məharətlə əks edə bilmişdir.

Azərbaycan Dövlət Musiqili Komediya Teatrının rəhbərliyi gənc quruluşçu rəssamların yetişməsinə də diqqət yetirir, onların peşəkar rəssam kimi püxtələşməsinə imkan yaradılır. Bu sırada gənc teatr rəssamı olan Sevinc Həsənovanı və Novruz Məmmədovun adlarını çəkmək yerinə düşər. 2011-ci ildə onların bədii tərtibatında M.F. Axundzadənin 200 illik yubileyi münasibətilə ədibin "Hekayəti Molla İbrahimxəlil kimyagər" komediyası əsasında hazırlanmış "Kimyagər" (S.Kərimi, Əjdər Ol) tamaşası səhnəyə qoyuldu. Parlaq rənglərin təzadlı keçidləri ilə yadda qalan dekorasiya qəhrəmanların geyimləri üçün seçilmiş əlvan rəngləri ilə həmahənglik təşkil edir. Bir qədər mübaliğə edilmiş kostyumlar eyni zamanda tamaşanın ümumi ruhuna xələl gətirmir və əlvan çalarları ilə janrın ümumi ruhuna cavab verirlər.

Rəssam R. Qasımovun "Gəl qohum olaq" (R.Qasımova, İ.Məlikzadə), "Üçdən altıya qədər" (A.Çxeidze) tamaşalarına verdiyi tərtibatlar tamaşasında real səhnə obrazlarından vaz keçərək, tamaşanın bütün tərtibatını əşyavisiz səciyyə daşıyan müxtəlif müstəvilərdən və həcmlərdən ibarət və həndəsi prizma və üçbucaq fonda simvolik qaldırıcı kranla təmsil olunan abstrakt məkan konstruksiyalarına gətirir.

Azərbaycan Dövlət Musiqili Komediya Teatrının aparıcı rəssamlarının yaradıcılığının təhlili zamanı belə bir nəticəyə gəlməyə imkan verir ki, hələ tamaşanın hadisələri başlamamış, pərdə qalxmamışdan əvvəl tamaşaçını həyəcanlandıran parlaq bədii obrazların yaranması tamaşanın səs tərtibatı və işıqlandırılma ilə yaradılır. Hər bir musiqili tamaşada – musiqili komediya və operettada işıq partiturası təkcə təsvir effektləri saxlamaqla kifayətlənməməli, ümumi koloritin, şəkilin "əhval-ruhiyyəsi"nin yaranmasına imkan yaratmalıdır. Özü də o, musiqiyə tam uyğun dəyişməli, musiqi partiturasına həmahəng olmalıdır. Tamaşadakı bədii işıqlandırma və səs tərtibatı müəlliflərdən və

teatrı rəssamlarının teatr-dekorasiya sənəti" (Bakı, 2010),[13] N.Ə. Mirzəyevanın "XX əsrin sonu – XXI əsrin əvvəllərində Azərbaycanda musiqili tamaşaların bədii tərtibatı" (Bakı, 2011)[14] və A.B. Hüseynovanın "Azərbaycanın balet tamaşalarında sənətlərin sintez problemi" (Bakı, 2013)[15] mövzusunda dissertasiyaları seçilmiş mövzunu qismən əhatə edirlər.

D.A. Səfərəliyevanın və S.İ. Şükurovanın tədqiqat işləri bütövlükdə Azərbaycan dekorasiya sənətinin təşəkkülü və inkişafı mənzərəsini qədim dövrlərdən 1985-ci ilə kimi xronoloji nöqteyi-nəzərindən ardıcıl şərhini təşkil edirlər. Belə ki, D.A. Səfərəliyeva tərəfindən Azərbaycan professional teatrının bünövrəsində duran xalq teatr tamaşalarının müxtəlif növləri və formaları ətraflı tədqiq olunublar. Sonralar peşəkar teatrının əsasını təşkil edən teatrlaşdırılmış xalq oyunlarını (xalq teatrı), dini misteriyaları (dini teatr), nəhayət, kübar şəxsi teatrları (həvəskar teatr) tədqiqat obyektinə çevirən müəllif, Azərbaycan dram və musiqili teatrının təşəkkülünü və inkişaf mərhələlərini ardıcıl izləyərək, əsas diqqəti teatr tamaşalarının tərtibatının bədii prinsiplərinə yönəldir.

S.İ.Şükurovanın dissertasiyası səhnəqrafiya tarixinin Böyük Vətən müharibəsindən sonra başlamış 1985-ci ilə kimi olan dövrü əhatə edir və M. Əzizbəyov ad. Dövlət Akademik dram teatrının və M.Qorki ad. Gənc Tamaşaçılar Teatrının tamaşa tərtibatlarını tədqiq edir. Hazırkı tədqiqat üçün bu dissertasiya alınan ümumi nəticələrlə – Azərbaycan dekorasiya sənətində göstərilən dövrdə mövcud təmayüllərin göstərilməsi ilə dəyərlidir. Azərbaycan teatr rəssamlarının o dövrdə işlədikləri materiallar sonralar, 1990-2000-ci illərin musiqili tamaşaların tərtibatının əsasını təşkil edərək inkişaf etdilər. Belə ki, S.İ. Şükurovanın qeyd etdiyi kimi, 1960-1970-ci illərdə "ənənəvi tərtibat üsulları ilə yanaşı, rəssamlar qrafikanın, miniatürün, dekorativ-ornamental sənətinin, xalçaçılığın və s. arsenalından yeni, daha ekspressiv üsullarından cəsarətlə

---

[13] Sadıxbəyova S.R. Azərbaycan Opera və Balet teatrı rəssamlarının teatr-dekorasiya sənəti. Namiz. diss. avtoreferatı – Bakı, 2004.

[14] Mirzəyeva N.Ə. XX əsrin sonu – XXI əsrin əvvəllərində Azərbaycanda musiqili tamaşaların bədii tərtibatı. Nam. diss. avtoreferatı – Bakı, 2011.

[15] Hüseynova A.B. Azərbaycanın balet tamaşalarında sənətlərin sintez problemi – Fəlsəfə dokt. avtoreferatı. Bakı, 2013.

istifadə etməyə başladılar ki, bu da tamaşa auditoriyasının gündən-günə artdığı estetik səviyyəsinə uyğun gəlirdi" [16].



Bu günə olan monoqrafik tədqiqatlardan yalnız L.İ. Atakişiyevanın "Azərbaycan musiqili teatrının qarşılıqlı əlaqələrinin tarixi problemləri" adlı dissertasiyası, ilk baxışdan, hazırkı işlə əlaqəlidir. Lakin burada müəllif öz diqqətini XX əsrin əvvəllərinə, yəni Azərbaycan musiqili teatrının yaranması və təşəkkülü dövründəki teatr mədəniyyətinə yönəldib.

Bu sırada S.R. Sadıxbəyovanın "Azərbaycan Opera və Balet teatrı rəssamlarının teatr-dekorasiya sənəti" mövzusunda tədqiqat işi diqqətə layiqdir, çünki burada respublikamızın aparıcı musiqili teatrının timsalında Azərbaycan teatr-dekorasiya sənətinin tarixi inkişaf yolu onun inkişaf səviyyəsi öyrənilir, bununla əlaqədar ölkəmizin yeganə opera və balet teatrının teatr-dekorasiya sənətinin tarixini araşdırılır və həm nə vaxtısa teatrda səhnə tərtibatı vermiş, həm də hazırda teatrda çalışan Azərbaycanın tanınmış rəssamlarının yaradıcılıq xüsusiyyətlərini üzə çıxarılır. Lakin göstərilən problemlərin araşdırılması sırf Azərbaycan Opera və Balet teatrı ilə bağlıdır.

N.Ə. Mirzəyevanın "XX əsrin sonu – XXI əsrin əvvəllərində Azərbaycanda musiqili tamaşaların bədii tərtibatı" mövzusunda dissertasiyası bütövlükdə musiqili tamaşaların tərtibatı işinin və o cümlədən teatr truppaları ilə əməkdaşlıq etmiş bir sıra görkəmli Azərbaycan rəssamlarının işinin spesifikası aşkar edilmişdir.

A.B. Hüseynovanın dissertasiyasında isə balet tamaşalarda sənətin sintezi təhlilə çəkilmişdir. Burada Azərbaycan balet tamaşalarının formalaşmasına muğam sənəti strukturunun, orta əsr miniatürünün təsiri müəyyən olunmuş, Azərbaycan tamaşalarının incəsənətlərin sintezi nəzəriyyəsi baxımından təhlil edilmiş və bu təhlil görkəmli Azərbaycan baletlərin nümunələri üzərində aparılmışdır.

Beləliklə, konkret olaraq Azərbaycan Dövlət Musiqili Komediya Teatrının tamaşaları və bu tamaşaların bədii tərtibatında iştirak edən teatr rəssamlarının yaradıcılığı xüsusi olaraq nəzərə çarpdırılmamışdır. Bu baxımdan belə tədqiqatın Azərbaycan Dövlət Musiqili Komediya Teatrının teatr-dekorasiya sənəti üzərində aparılmasının zəruriliyi danılmazdır.

---

[16] Şükurova S.İ. Azərbaycan sovet dövrü teatr-dekorasiya sənəti (1946-1985-ci illər). Namiz. diss. avtoreferatı – Tbilisi, 1990, s. 15.

Dissertasiyada bilavasitə yuxarıda sadalanan monoqrafiyalardan, Azərbaycan tədqiqatçılarının, sənətşünasların müxtəlif elmi məqalələrindən istifadə edilmiş, şəxsi müşahidələrdən, sərgilərdən, rəssamların kataloqlarından, tamaşalardan bəhrələnmiş və Azərbaycanda bu sənətin tərtibatı məsələlərini əhatə etməyə, müqayisəli təhlilini verməyə çalışmışdır. s. tamaşaları qürurla xatırlada



bilərik. Onun səhnə tərtibatları monumental həlli, emosional ifadə vasitələrinin səciyyəviliyi, yumşaq və lirik boyaların canlı təcəssümü ilə seçilir. İşlədiyi əsərə uyğun elə forma təklif edir ki, həmin tərtibat mütləq səhnədə estetik obraz funksiyasını bədii dəqiqliklə daşıya bilir. İşıqdan və səhnə texnikasının imkanlarından bacarıqla bəhrələnir. Onun verdiyi bədii quruluşlarda fəza genişliyi var və bu genişlik quruluşçu rejissorun qayəsinə xidmət etməklə yanaşı, eyni zamanda aktyorların sərbəst və səhnə davranışlarına, mürəkkəb mizanların realizəsinə geniş imkanlar açır. Tamaşanın tərtibatı tamaşaya qoyulan əsərin görüm, baxım bucağıdır. Tamaşanın ilk qavrayışı rəssam tərtibatı ilə olur. N. Bəykişiyev də hər zaman bu prinsipə sadiq qalmışdır, tərtibatın daha baxımlı və təsirli görünüşünə nail olmağa çalışmışdır.[18]

Fəslin *II yarımfəsli* son illər ərzində teatr rəssamlarının yaradıcılığında üslub və forma rəngarəngliyinin müəyyən olunmasına həsr olunub. Hazırda teatrda çalışan istedadlı teatr rəssamları E.Qurbanov, N.Səmədova, R.Qasımov və b. fərqli nüanslar, daha müasir təqdimat forması tapmağa cəhd göstərirlər, onu müasir tamaşaçının tələblərinə cavab verən səviyyədə hazırlamağa çalışırlar.

Eldar Qurbanovun tərtibat verdiyi tamaşalar öz zamanının məhsulu olaraq bu zamanın möhürünü daşımaqdadır. Bu tamaşalar səhnəqrafiya sənətinin inkişafının müəyyən təmayüllərini özündə təcəssüm etdirməklə yanaşı, eyni zamanda, fərdiliyi, bənzərsizliyi ilə diqqəti cəlb edir. Son on ildə Eldar Qurbanovun tərtibat verdiyi çoxsaylı tamaşalardan "Qısqanc ürəklər", "Ər və arvad" və s.-də onun bir rəssam kimi istedadının hər zərrəsi açılır.

Azərbaycan Dövlət Musiqili Komediya Teatrında fəaliyyət göstərən Nabat Səmədova burada "Səhnədə məhəbbət" (S.Fərəcov, Ə.Əmirli), "Əlin cibində olsun" (O.Rəcəbov, A.Babayev), "Məsmə xala dayımdır" (R.Mustafayev, C.Məmmədov), "Beydullanın möhtəşəm toyu" (R.Əkbər), "Bir günlük siğə" (S.Fərəcov, R.N.Güntəkin) musiqili komediyalarına maraqlı, tamaşaların

[18] Ələsgərli Ç. Nazim Bəykişiyevin yaradıcılığı haqqında düşüncələr // "Qobustan", №2, 2004, s. 37.

bütövlüyünə xidmət edən bədii tərtibat vermişdir. Rəssamın məhsuldar yaradıcılığı nəticəsində 60-dan artıq teatr tamaşasına uğurlu quruluşlar verilmişdir. Xüsusi diqqətə Musiqili Komediya Teatrında 2011-ci ildə səhnəyə qoyulan N.V.Qoqolun "Evlənmə" tamaşası layiqdir. Komediya dövlət teatrları tarixində ilk antrepriz[19] tamaşa kimi yadda qalıb. İllər boyu yalnız musiqili



Bu dövrdə teatrda səhnələşdirən əsərlər təcrübəli və teatr-dekorasiya sənətinə yenicə qədəm qoymuş rəssamların gərgin zəhməti sayəsində yaranan maraqlı tərtibatlarla yadda qalmışdır. Teatrın baş rəssamı vəzifəsinə Azərbaycanın Xalq rəssamı İsmayıl Məmmədov təyin olundu və burada 2007-ci ilə kimi işlədi. Bu dövrdə teatrın əsas repertuarını avropalı müəlliflərinin klassik əsərləri (İ.Kalmanın, F.Leqarın operettaları) və ya Azərbaycan klassik bəstəkarların əsərləri (Üz. Hacıbəylinin, Q.Qarayevin, R.Hacıyevin) ilə yanaşı, müasir Azərbaycan bəstəkarların çoxsaylı pyesləri də yer almışdır.

Musiqili komediya janrı sadəcə olaraq əyləncə janrı deyil. O, yüngül, zarafat formasında "cəmiyyətin xoralarını", nöqsanlarını və müasir həyat tərzinin problemlərini aşkar etməyə, yəni normal insan cəmiyyətinin sağlam prinsipial zəruri fəaliyyəti üçün müəyyən mənada "əyri güzgü" rolunu oynamağa dəvət edir. Musiqili komediya, bütövlükdə satirik janr kimi, tamaşaçının xətrinə dəyməyərək tənqidi gizli formada təxmin edir ki, burada "əşyalar öz adı ilə göstərilir" və cəmiyyətin həyat mənzərəsi seyrçi qarşısında obyektiv formada, olduğu kimi canlanır. Janrın bu ikili təbiəti İsmayıl Məmmədov tərəfindən incə sezilir. Azərbaycan müəlliflərinin müasir pyeslərində – E.Sabitoğlunun və R.Əhmədzadənin "Hələlik!" (1999), E.Sabitoğlu və T.Vəliyevanın "Bankir adaxlı" (2000), C.Quliyevin və Q.Rəsulovun "Məhəbbət oyunu" (2001), R.Hacıyevin, F. Zöhrabovun və E.Ocaqovun "Talelər qovuşanda" (2003), E.Sabitoğlu və T. Vəliyevanın "Mən dəyərəm min cavana" (2007) və bir sıra başqa əsərlərdə o, öz təfəkkürünün bütün laylarını göstərdi. Fərdiliyə malik bu rəssam, teatrın simasını, quruluşların üslubunun özünü bir çox illər önə əhəmiyyətli dərəcədə müəyyən etdi. Məhz özünün fərdiliyinə görə İsmayıl Məmmədov teatrın ənənəvi iş üslubunu yeniləşdirməyə müvəffəq oldu, onun quruluşlarına müasir səslənmə gətirdi.

Teatrın səhnəsində onlarla tərtibat vermiş Xalq rəssamı Nazim Bəykişiyevin öz tamaşalarında ənənəni inkar etməsə də, kanonları qəbul etmir. O, özününkü olanı, hazırda qurulmaqda olan tamaşa üçün vacib olan yeganə səhnəqrafik həlli tapa bilir.

[19] Antrepriz – müxtəlif teatrların aktyorlarının bir tamaşada oynaması

Azərbaycan Dövlət Musiqili Komediya Teatrında N.Bəykişiyev 1980-ci illərdən bu tərəfə bir-birinin ardınca yaddaqalan səhnə dekorasiyaları işləmişdir. Məsələn, bunlar arasında Azərbaycan Dövlət Musiqili Komediya Teatrında “Qızıl toy” (dramaturq R.Heydər, bəstəkar O.Kazımov, 1980), “Məzəli əhvalat” (R. Qasımova, 1981), “Qaçırılmış qız” (C. Məmmədov, R. Mirişli, 1982), “Olmadı elə, oldu belə” (Ş.Qurbanov, S.Ələsgərov, 1983), “O olmasın, bu olsun” (Üz. Hacıbəyov, 1985), “Qarğa, məndə qoz var” (C. Aslanoğlu, H. Qurbanov, 1991) və



**Mövzunun məqsəd və vəzifələri.** Dissertasiyanın əsas qayəsini respublikanın aparıcı musiqili teatrı olan Azərbaycan Dövlət Musiqili Komediya Teatrı timsalında Azərbaycan teatr-dekorasiya sənətinin təşəkkülünü, təsviri sənətdəki rolunu və inkişaf səviyyəsini müəyyən etmək təşkil edir. Respublikamızda yeganə olan musiqili komediya teatrının teatr-dekorasiya sənətini araşdırmaq, vaxtilə həmin teatrda işləyən və hal-hazırda burada teatr tamaşalarının bədii tərtibatı ilə məşğul olan tanınmış teatr rəssamlarının yaradıcılığını tədqiq etmək kimi problemlər dissertasiyanın məqsədi kimi müəyyən olunmuşdur.

Göstərilən məqsədi rəhbər tutaraq tədqiqat qarşısında aşağıdakı vəzifələr qoyulmuşdur:

1. Azərbaycan Dövlət Musiqili Komediya Teatrı timsalında Azərbaycan teatr-dekorasiya sənətinin təşəkkülünün, formalaşmasının və təkamülünün əsas mərhələlərini müəyyən etmək;
2. Azərbaycan Dövlət Musiqili Komediya teatrının teatr-dekorasiya sənətinin əsas inkişaf təmayüllərini müəyyən etmək;
3. Azərbaycan Dövlət Musiqili Komediya teatrında səhnəyə qoyulan teatr tamaşalarının yaradıcılıq inkişafının bədii xüsusiyyətlərini müəyyən etmək;
4. teatrın aparıcı rəssamlarının yaradıcılığını və ayrı-ayrı tamaşaların tərtibatını vermiş görkəmli Azərbaycan rəngkarlarının ən parlaq nümunələrini təhlil etmək;
5. müasir dövrdə teatrla əməkdaşlıq edən rəssamların yaradıcılığında nəzərə çarpan yeni təmayülləri müəyyən etmək.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti kimi Azərbaycan Dövlət Musiqili Komediya teatrının səhnəsində müxtəlif dövrlərdə qoyulmuş səhnə əsərləri və onların bədii tərtibatı üzərində çalışan teatr rəssamlarının dekorasiya eskizləri, geyim nümunələri çıxış edirlər.

Dissertasiyanın predmetini isə teatr-dekorasiya sənətinin tarixi və nəzəri əsasları təşkil edir. Bilavasitə dissertasiyanın məqsədi ilə müəyyən olunan tədqiqat predmeti Azərbaycan Dövlət Musiqili Komediya teatrında müşahidə olunan milli teatr-dekorasiya sənətinin məqamlarını, onun mənşəyini, təzahürlərini, professional inkişafının tədqiqi təşkil edir.

**Tədqiqatın metodologiyası** Azərbaycan cəmiyyətinin bu və ya digər dövrlərdə tənəzzülünü və ya təkamülünü izləməyə, onun estetik görüşlərini və milli ənənələrini öyrənməyə imkan verən ictimai-mədəni, siyasi həyatı nöqteyi-nəzərdən tarixi-müqayisəli təhlil prinsipinə əsaslanır.



Bu günə kimi Azərbaycan Dövlət Musiqili Komediya teatrının dekorasiya-tərtibat sənətinin xarakteristikasına, onun tarixi inkişafına, eləcə də bu teatrda çalışan rəssamların yaradıcılığının sənətşünaslıq təhlilinə həsr olunmuş xüsusi tədqiqatın olmadığını nəzərə alaraq, bu geniş və mürəkkəb material tarixi-nəzəri sənətşünaslıq aspektindən nəzərdən keçirilib, onun tədqiqinin və tarixi ümumiləşdirilməsinin əsas istiqamətləri müəyyən olunub.

**Tədqiqatın sərhədləri.** Tədqiqatın xronoloji sərhədləri Azərbaycan Dövlət Musiqili Komediya teatrının təməli qoyulandan bu günə kimi bir əsrlik dövrü əhatə edir. Seçilmiş teatrın tamaşalarının bədii tərtibatının öyrənilməsi məqsədi ilə bütövlükdə teatr-dekorasiya sənəti tarixinin ekskurslu icmalı verilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiq olunmuş dissertasiya çərçivəsində ilk dəfə olaraq Azərbaycan Dövlət Musiqili Komediya teatrının teatr-dekorasiya sənətinin inkişaf problemləri Azərbaycan dekorativ-tətbiqi sənətin ümumi inkişaf kontekstində geniş işıqlandırılması cəhdi olunub. İnqilabdan əvvəlki dövrdən başlayaraq müasir dövr də daxil olmaqla bu günə qədər olan teatr-dekorasiya sənəti bütöv bir kompleks şəkildə tədqiq olunur. Tədqiqata seçilmiş teatrın səhnəsində təcəssümünü tapmış tamaşaların bədii-dekorasiya tərtibatının təfsilatlı sənətşünaslıq təhlili verilmişdir. Müasir dövrdə Azərbaycan Dövlət Musiqili Komediya teatrı rəssamlarının yaradıcılığında nəzərə çarpan yeni təmayülləri göstərilmiş, səhnəyə qoyulan teatr tamaşalarının yaradıcılıq inkişafının bədii xüsusiyyətləri müəyyən edilmişdir.

Dissertasiyada müxtəlif dövrlərdə bu sahədə çalışan Azərbaycanın aparıcı rəngkarları tərəfindən işlənilən ən parlaq teatr quruluşlarının ətraflı təhlili verilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Təqdim olunan dissertasiya işinin praktiki əhəmiyyəti Azərbaycan Dövlət Musiqili Komediya teatrının teatr-dekorasiya sənətin öyrənilməsinin genişləndirilmiş spektri ilə səciyyələnir ki, bu da ölkənin digər aparıcı teatrlarının teatr-dekorasiya sənətinin öyrənilməsinə və tədqiqinə təkan verə bilər. Tədqiqat işində təhlilini tapmış Azərbaycan teatr rəssamlarının

bədii-tərtibat yaradıcılığının bədii xüsusiyyətləri, bu ustadların iş təcrübəsini gənc teatr rəssamları, dekoratorlar, teatr kostyumları rəssamları tərəfindən əsas götürülərək, onların öz yaradıcılığında istifadə edilə bilər.

Dissertasiyanın nəticələri tədqiqatçı-sənətşünaslar tərəfindən bu sahədə aparılan gələcək tədqiqatlar üçün də münbit zəmin yarada bilər və beləliklə şübhəsiz praktiki dəyərə malikdirlər.



olunmuş və şəxsi kolleksiyalarının bəzəyinə çevrilməklə yanaşı, milli mədəniyyətimizin təbliğinə xidmət etmişdir. Monumental səhnə obrazlarının ustadı kimi tanınan Böyükağa Mirzəzadə bu illərin səhnə tərtibatı mədəniyyətini bacarıqla qavramışdır. Rəssamın təfəkkür genişliyi, kompozisiya həllərinin möhtəşəmliyi və rəng koloritinin nəfisliyi, sallama dekorasiyaların poetik gözəlliyi ilə seçilən yaradıcılığı milli teatr-dekorasiya sənətində yeni mərhələ oldu. Sovet teatr-dekorasiya sənətinin gözəl ənənələrini mənimsəyən B.Mirzəzadə realistik səhnə mədəniyyətinə bacarıqla yiyələnmişdir. Bədii görümün geniş dairəsinə, incə zövqə malik olan rəssam, özünün yaradıcılıq axtarışlarında novatorluğa meyl edirdi. Rəssamın səhnə quruluşlarının dekorativ tərtibatı dövrün estetik tələblərinə uyğun olan sadəlik, lakoniklik və monumentallığı ilə seçilirdi. Teatr-dekorasiya sənətində yer almış bəzi köhnəlmiş ştamplardan uzaq qaçan B.Mirzəzadə, öz dekorasiyalarına müasir səslənmə verməyə çalışırdı.

**<u>Fəsil III</u> – “Müasir dövrdə Azərbaycan Dövlət Musiqili Komediya Teatrının bədii tərtibatında yeni təmayüllər”** iki yarımfəsildən ibarətdir. *Birinci yarımfəsildə* 1985-2000-ci illərdəki tamaşaların səhnə tərtibatının təhlili aparılır.

Mədəniyyətimizə ciddi zərbə vuran 1990-cı illərin ictimai-siyasi, həmçinin Qarabağ hadisələri Musiqili Komediya Teatrından da yan keçməmişdir. 1988-1998-ci illərdə teatrın binasının olmamağı da teatr kollektivinin yaradıcılığına müəyyən qədər təsir etmişdir. Uzun illər burada gedən təmir işləri truppanın normal fəaliyyətini çətinləşdirirdi.

1998-ci ildə təmir başa çatdı. Respublika Prezidenti Heydər Əliyevin sayəsində teatrın müasir tələblərə cavab verən yeni binasının özünə qaytarılması teatrın inkişafına böyük təkan verdi və teatr tam iş rejimində fəaliyyət göstərməyə başladı. Bununla da teatr özünün yeni inkişaf mərhələsinə qədəm qoydu. Bərpa olunan yaradıcı kollektiv maraqlı və zəngin repertuarın formalaşmasına nail oldu.

Teatrın repertuarı Azərbaycan bölməsində gedən “O olmasın, bu olsun”, “Nəğməli Könül”, “Səhnədə məhəbbət”, “Hələlik”, “Hərənin öz ulduzu”, “On min dollarlıq kef”, “Dəli dünya”, “Bir saatlıq xəlifəlik”, “Bankir adaxlı”, “Məhəbbət oyunu”, “Əlin cibində olsun”, “Məsmə xala – dayımdır”, “Talelər qovuşanda”, “Volqalı canan” maraqlı tamaşalarla, eləcə də rus bölməsində gedən “Maritsa”, “Silva”, “Şən dul qadın”, “Nümunəvi siqan”, “Çılğın qaskonyalı” və s. bu dövrdə səhnə təcəssümünü tapan əsərlərlə zənginləşir.



bağlıdır. Rəssam rəngkarlıq dekorasiyasından məharətlə istifadə edə bilmiş və bu dekorasiya əsas ifadə vasitəsi kimi çıxış etmişdir.

Fəslin *II yarımfəslində* 1960-1985-ci illərdəki tamaşaların səhnə tərtibatının bədii xüsusiyyətləri araşdırılır. 1960-70-ci illərdə Azərbaycan teatrlarının klassik irsə marağı artır. Bu tamaşalar, ilk növbədə həyat hadisələrinə cürətlə daxil olması, gerçəkliyin ən dərin inikası, hər bir yenilik və mütərəqqilik uğrunda mübarizə etməyə malik olan parlaq hərtərəfli obrazların yaranması ilə diqqəti cəlb edir. Teatrın səhnəsində H. Əlivərdibəyovun “Nazxanım naz eləyir”, E.Sabitoğlunun “Hicran”, S.Ələsgərovun “Həmişəxanım”, C.Cahangirovun “Təzə gəlin”, rus bölməsində isə T.Quliyevin “Sabahın xeyir, Ella”, R.Hacıyevin “Qafqazlı qardaşqızı”, H.Xanməmmədovun “Bütün ərlər yaxşıdır”, K.Rıçkovun “Nevada detektiv” və s. tamaşaya qoyulmuşdur.

Bu dövrün səhnəqrafiyasının peşəkar tərəqqisi aparıcı rəssamlar olan Asəf Cəfərov, Böyükağa Mirzəzadə b. adları ilə bağlıdır. Dəzgah rəngkarlığı ustaları olan bu rəssamlar Azərbaycan teatr-dekorasiya sənətinə də dəyərli töhfələr verdilər. Bu rəssamlar tamaşanın bütövlüklə ümumiləşdirilmiş obrazını yaratmaq üçün çox zaman metaforik dekorasiyaya müraciət edirdilər, belə ki, səhnə əsəri plastik metafora vasitəsi ilə açılırdı. Belə dekorasiya-metaforalar ən müxtəlif formalarla ifadə olunurdu və aktyorlarla müxtəlif cür qarşılıqlı təsirə məruz qalırdılar.

Dəzgah yaradıcılığındakı gözəlliyə məftunluğunu A.Cəfərov özünün teatr dekorasiyasına da gətirdi. Rəssamın dekorasiya metodunda rəngkarlıq başlanğıcı üstünlük təşkil edirdi. Onun teatral impressionizminə modern üslubunun dekorativ üsulları və retrospektiv üslublaşdırılma yad idi. Teatrda o, ehtiraslı və parlaq kolorist idi və tamaşanın emosional-rəngkarlıq düzümünün çatdırılmasında daim yüksəkdə idi.

1965-1976-cı illərdə Dövlət Musiqili Komediya Teatrının baş rəssamı vəzifəsində çalışan Böyükağa Mirzəzadə teatr-dekorasiya sənəti sahəsində də öz bənzərsiz fırçasını uğurla sınaqdan keçirmişdir. İ. Əfəndiyevin “Mənim günahım” pyesinə, Z.Bağırovun “Qaynana” musiqili komediyalarına, İ.Ştrausun “Yarasa”, İ.Kalmanın “Bayadera” operettalarına bədii tərtibat verən rəssamın boyakarlıq və qrafika əsərləri ölkəmizin rəssamlıq sənəti tarixinə həmişəlik daxil olmuşdur. Onun əsərləri böyük emosional təsir qüvvəsinə malik olub müasirlərinin estetik zövqünün formalaşmasında mühüm rol oynamışdır. Görkəmli rəssamın çəkdiyi tablolar müasir Azərbaycan təsviri sənətinin qiymətli nümunələri kimi dünyanın bir çox tanınmış muzeyləri, rəsm qalereyaları, sərgi salonlarında uğurla nümayiş



İşdə tədqiq olunan Azərbaycan Dövlət Musiqili Komediya teatrının bədii-dekorasiya sənəti respublikanın digər aparıcı teatrlara həsr edilmiş buna bənzər tədqiqatlar arasında balans yarada bilər. Burada görkəmli Azərbaycan teatr rəssamlarının çoxlu sayda müəllif işlərinin sənətşünaslıq təhlili verilib ki, onların bir sıra dekorasiya və kostyum eskizləri respublikanın arxiv və muzeylərində yaddan çıxarılaraq istifadəsiz qalmış və tədqiqata cəlb olunmamışdır.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiyanın əsas müddəaları müxtəlif səviyyəli elmi konfranslarda dinlənilmiş, eləcə də müəllifin çap olunmuş bir sıra məqaləsində əksini tapmışdır. Tədqiqat işi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin “Sənətşünaslıq” kafedrasında müzakirə olunub.

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiya giriş, üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından və əlavə edilmiş illüstrativ albomdan ibarətdir. Mətn kompüter yığımının 125 səhifəsində təqdim olunub.

## İŞİN MƏZMUNU VƏ ƏSAS MÜDDƏALARI

**Fəsil I – “Azərbaycan Dövlət Musiqili Komediya Teatrında səhnə tərtibatı ənənələrinin formalaşması”** iki yarımfəsildən ibarətdir. *Birinci yarımfəsildə* teatrın səhnəsində qoyulan musiqili tamaşaların səhnəqrafiya özəllikləri üzə çıxarılır.

Bədii yaradıcılıq növü olan səhnəqrafiya tamaşanın tərtibatı ilə və onun səhnə zamanında və məkanındakı təsvir-plastik surətinin yaranmasına yönəlib. Tamaşada səhnəqrafiya sənətinə aktyoru əhatə edən (dekorasiya), onun oyununa, hərəkətinə təkan verən (maddi-əşyavi atributlar) və onun əynində olan (kostyum, aktyor qrimi, maska, onun zahiri görünüşünü dəyişən başqa vasitələr) hər şey aiddir. Bununla belə səhnəqrafiyanın ifadə vasitələri qismində digər ünsürləri də istifadə etmək olar: birinci növbədə təbiətin yaratdığını, daha sonra məişət və ya istehsalat əşyalarını və fakturasını və nəhayət, rəssamın yaradıcılığı nəticəsində meydana gələn maskalardan, kostyumlardan və əşyavi rekvizitdən başlamış rəngkarlıq, qrafika, səhnə məkanı, işıq, dinamika və s.

Teatrın, xüsusən musiqili teatrın səhnəqrafiya təbiəti sintetikdir. Hərəkət-oyun səciyyəsi əsasında o, rəngkarlıq, memarlıq, hadisənin plastik təşkilini musiqi, ritm, xoreoqrafiya və sözlə birləşdirir. Stenoqrafın, bəstəkarın, xoreoqrafın, geyim və işıq üzrə rəssamın yaradıcılığı, qrim üzrə rəssamın, dekoratorun və s. ustalığı müasir musiqili teatrında bədii vahidin təcəssümünə tabedirlər.



Musiqili komediya deyəndə tamaşaçıdan artıq ağıl və hiss gərginliyini tələb etməyən yüngül əyləncəli tamaşa nəzərdə tutulur. O, məhz belə idi. Burada fabula bir o qədər vacib deyildi. Əsas diqqət tamaşaçıların pərəstiş etdiyi ifaçıların səsləndirdiyi “zərbəli” vokal nömrələrə yönəlirdi ki, onlar da, bir qayda olaraq, hadisənin inkişafına deyil, əksinə, onun dondurulmasına qulluq edirdilər. Onu da qeyd etmək lazımdır ki, musiqili komediyaların qabaqcadan məlum sonluqlu sentimental süjetləri heç bir əhəmiyyət kəsb etmirdilər. Tamaşaçını daha çox musiqi, teatr “ulduzları”, zəngin dekorasiyalar və kordebaletin incə ayaqları cəlb edirdi.

Teatr – həyati konflikt, hərəkət, inkişaf vəziyyətində təsvir edən hadisələrlə dolu incəsənətdir. Musiqili teatr sənəti bu mənada həmişə dramatikdir. Bu dramatizm komediya səviyyəsində özünü göstərir, libretto və musiqili partiturada açılır. Musiqi və rəqslərlə müşahidə olunan əyləncəli tamaşa kimi yaranan musiqili komediya və ya operetta janrı özünün bədii dilinə, ifadə-təsvir vasitələri sisteminə və estetik prinsiplərinə malikdir ki, bunlar teatr rəssamın tərtibat işləri ilə sıx bağlıdır.

Teatr rəssamının işinin istiqaməti janrın tələblərindən asılıdır. Xüsusilə musiqili tamaşalarda, o cümlədən operettalarda, musiqili komediyalarda, vodevillərdə, müzikllarda və s. rəssam iştirakçılarla bərabər hüquqda çıxış edir. Musiqinin tamaşaçı duyğusu ilə bağlı olması səbəbindən dekorasiyalar burada musiqinin təsvir ifadəsi forması qismində çıxış edirlər. Bu forma təsir bağışlamalıdır – buradan da musiqili komediyalarda, operettalarda tam dəyərli tamaşa başlanğıcının zəruriliyi irəli çıxır.

Tamaşanın bədii tərtibatının əsasını hadisənin məkanını və zamanını təsvir edən dekorasiya təşkil edir. Dekorasiyanın konkret forması (kompozisiya,

koloristik quruluş və s.) təkcə əhvalatın məzmunundan deyil, onun xarici şərtlərindən (əhvalat məkanının daha sürətlə dəyişilməsindən, dekorasiyanın tamaşa zalından qavrama xüsusiyyətlərindən, onu müəyyən işıqlandırma ilə uyğunluğundan) asılıdır.

Kütləvi səhnələrdə çoxsaylı aktyor qrupların hərəkət etdiyi səbəbindən kostyumların rəngi xüsusi önəm kəsb edir. Rəssam düzgün rəng yolu tapsa, kütlənin səhnədə hərəkəti tamaşaya böyük dinamik güc verə bilər. Dekorçu-rəssamın musiqili tamaşasının balet truppasına yanaşması çox vaxt musiqinin və librettonun xarakterindən asılıdır. Lakin balet və rəqs nömrələrinin və bütövlükdə quruluşun həlli üçün bir prinsipial əsas mövcuddur. Balet və rəqs nömrələri üçün səhnə boşluğu lazımdır, çox yer tutan qurulmuş dekorasiyalar lmamalıdır,



sadə və yığcam dekorların nikbin və xoş boyaları ilə seçilir. Tamaşanın tərtibatı nikbin tonlarda, aydın təsvir formalarında həll olunmuş, qrafik tərzdən istifadə edilmişdir. Müasir şəhər həyatının mənzərəsini əks etdirən səhnələrdə müxtəlif sənaye mənzərələri, istehsalat binaları, kabinetlərin və yaşayış evlərinin interyeri və s. görmək olardı.

Təsvir vasitələrindən qənaətlə istifadə etmək cəhətdən "Kəndçi qız" komediyasının tərtibatı daha səciyyəvidir. Tamaşada verilən kənd mənzərələri, interyerlər sözün müsbət mənasında şərti və lakonik həll olunmuşdur. Lakin dekorlar kolorit baxımından daha əlvan və cazibədardır. Bu mühiti yaratmaq inandırıcı aktyor obrazını yaratmaq qədər çətin və mürəkkəbdir, belə ki, mühit obraz kateqoriyası olaraq əsərin qəhrəmanı və ideyaları ilə qırılmaz surətdə

sadəliyi, tərtibat işləri dramaturq və rejissor fikri ilə həmahəngdir. Səhnənin ümumi planının eskizlərində ümumi əhval-ruhiyyəni vermək üçün səhnənin kolorit vəziyyətini müəyyən etməyə müvəffəq olur. Otaqların daxili görünüşü, əşyaların detalları məhz rənglə xarakterizə edilir.

İstedadlı teatr rəssamlarından olan Əsgər Abbasovun zəngin və bəhrəli səhnəqrafiya fəaliyyətində Azərbaycan Dövlət Musiqili Komediya Teatrında hazırlamış tamaşalara verdiyi tərtibatlar xüsusi yer tutur. Müstəqil bədii tərtibat işləri ilə bərabər rəssam, unudulmuş dekorasiyalarının bərpasına da səy göstərirdi.

Onun yaddaqalan səhnə tərtibatlarından biri unudulmaz sənətkar Rüstəm Mustafayevin vaxtilə işlədiyi, lakin istifadə olunmadığı "Arşın mal alan" musiqili komediyasına verdiyi dekorasiya tərtibatının yeni təfsiridir. R. Mustafayevin dahi Üzeyirin məşhur komediyasına verdiyi bütövlüyü və bədiiliyi ilə seçilən bədii tərtibatda məişət mədəniyyəti ön plana çəkilmişdir. Səhnə təcəssümü görməyən bu dekorasiyalar yalnız 1956-cı ildə Azərbaycan Dövlət Musiqili Komediya Teatrı səhnəsində təzələnir. Mövsüm məhz "Arşın mal alan" pyesinin səhnələşdirilməsi ilə başlayır. Rəssam-tərtibatçı Əsgər Abbasov Rüstəm Mustafayevin xatirəsinə həmin eskizləri əsas götürərək dekorasiyanı yenidən işləmişdir.

XX əsrin ortalarından teatra mühüm töhfələri olan və 1960-cı illərdə gərgin fəaliyyət göstərən rəssamlar arasında Sadıq Şərifzadənin adını xüsusilə çəkmək lazımdır. O, romantik-monumental, sonrakı yaradıcılıq dövründə psixoloji-fəlsəfi, realist səhnəqrafiyamızın formalaşmasında səmərəli işlər görüb. "Əcəb işə düşdük" (Ş. Qurbanov, 1961), "Kəndçi qız" (M. İbrahimbəyov, 1963) tamaşalarına aydın, maraqlı tərtibatlar vermişdir. "Əcəb işə düşdük" tamaşasının



prinsiplərin qəbuluna sənət həmişə və vaxtında hazır ola bilmirdi. Teatr hələ də vaxtı keçmiş ənənələrin ağır yükünə davam gətirməli olurdu. Bununla belə, teatrların əldə etdiyi nailiyyətlər də çox mühüm idi. Qardaş xalqların səhnə mədəniyyəti ilə qarşılıqlı əlaqələri güclənmiş, müasir dünya dramaturgiyasına və teatrına maraq artmışdır. Nəhayət, tamaşaçının özünün mədəni zövqü və estetik tələbləri xeyli yüksəlmişdir.

Bütün bunlar milli teatrın potensial imkanlarından xəbər verirdi. Hər cür çətinliklərə baxmayaraq, teatrın yaradıcılıq həyatının ən ağır illərində də bu imkanlar ayrı-ayrı uğurlu tamaşalarda özünü göstərirdi. Bu dövrdə teatrda fəaliyyət göstərən Həsən Mustafayevin teatr dekorasiya eskizləri yüksək vətəndaşlıq hissi və sənətkarlıqla yaradılmışdır. O, eskizdə hazırladığı dekorasiyanın və onun elementlərinin xarakterik rəng ahəngini, konkret planın rəng özünəməxsusluqlarını axtarıb tapır. Peşəkar səviyyədə rəngkarlıq mədəniyyətinə malik olan H. Mustafayev gözəl geyim ustası kimi də ad çıxarıb. Z.Hacıbəyovun "Evliykən subay" tamaşasına onun çəkdiyi eskiz kostyumlarından istifadə edilib. Ssenari ilə yaxından tanış olan rəssam geyimlərdə dövrün mədəniyyətini, xüsusiyyətlərini göstərə bilib, peşəkarlığı ilə tamaşaçını inandırmağa, yüksək səviyyədə hazırladığı paltarla həyəcanlanmağa vadar edir. Bu həm də rəssamın eskizləri əsasında reallaşdırdığı quraşdırılmış səhnələrin yaradılmasına da aiddir.

Həsən Mustafayevin tərtibat verdiyi tamaşalarda dekorasiyalarda öz təsviri-dekorativ stilistikanın vəhdətini qoruyub saxlayır. Təbiət obyektlərinin dekor obyektləri ilə dəyişdirilməsi prosesində səhnələrin şərtiliyi pozulmur. Bəzən bu

mürəkkəb bir dekorasiya kompleksi, bəzən də kiçik dekorasiya detalı olur. Lakin hər iki halda bu dekorasiyalar naturanın – yəni təbii mühitin tamamlayıcısı rolunda çıxış edir.

1960-cı illər İsmayıl Axundovun yaradıcılığı üçün daha məhsuldar olmuşdur. O, bu illərdə N.Hikmətin “Şöhrət və ya unudulan adam” (1960), S.Rəhmanın “Əliqulu evlənir” (1961), M.Hüseynin “Alov” (1963), C.Cabbarlının “Oqtay Eloğlu” (1966), M.F.Axundovun “Musyo Jordan və dərviş Məstəli şah” (1969) tamaşalarına geyim eskizləri çəkmiş və səhnə tərtibatı vermişdir. Yaradıcılığında satira və yumor motivləri güclü olan İ. Axundovun musiqili komediya tamaşalarına vermiş səhnə tərtibatlarında, xüsusilə geyimlərdə və qrimdə Ə. Əzimzadənin satira ənənələri açıq-aydın izlənir. Səhnə tərtibatlarında klassik üslubda işləməyə üstünlük verən İ. Axundovun yaradıcılığı rənglərin şuxluğu və aydınlığı, kompozisiyanın



üzərində hər bir siluet, aktyorun hərəkətindəki hər bir ştrix dəqiq və kəskin çəkilən fon yüngüllüyü və sadəliyi ilə seçilməlidir. Burada rəssamın əsas məqsədi hərəkət və ritm üçün məkan təşkil etməkdir. Balet kostyumu da son dərəcə sadə və plastik olmalıdır; bu o demək deyil ki, onu gimnastik trikoya qədər endirmək lazımdır, kostyumun detallarının obrazlı kəskinliyə malik olmasına və ifaçının hərəkətlərinə mane olmamağına cəhd göstərilməlidir. Səhnənin dekorativ həllinin ümumi fonunda çox vaxt tək işlədiyi üçün balet aktyorunun kostyumunun rəngi rəssamın palitrasında əsas koloristik zərbə olmalıdır. Bu halda elə bir həll uğurlu hesab oluna bilər ki, müəllif burada böyük bədii duyğu və yüksək zövq göstərsin.

Teatr rəssamının öz işləri barədə həmin an deyə bilən rəngkardan, qrafikdən və heykəltəraşdan fərqi ondadır ki, o, öz fikirlərini və hisslərini yalnız müvafiq dramaturji material vasitəsilə bildirə bilər. Bu materialın keyfiyyəti nə qədər yüksək olsa, dekorator-rəssamın onun üzərində işləmək bir o qədər maraqlı ola bilər. Çünki quruluşçu rəssam təkcə səhnənin “tərtibatı” üzərində deyil, tamaşanın forması üzərində, onun bütöv obrazı üzərində işləyir. O, pyesi illüstrə etmir, rejissorla birgə onun dramatik hadisəsini açır, tamaşanın ideya mənasının təyin olunmasında və onun xarakterinin müəyyən olunmasında iştirak edir. O, dramatik hadisə üçün neytral, tarixi fonu yaratmır. Öz sənətinin vasitələri ilə mühitin və iştirakçıların xarakteristikasını verir, təsvir olunan dövrün tarixi üslubunun elementlərini göstərmir, onun üslub mahiyyətini ifadə edir. Bir sözlə, quruluşçu rəssam pyesin məzmununu və formasını, dramaturqun dünyagörüşünü və yaradıcı metodunu dərindən başa düşməlidir, dərindən dərk etməlidir. Rəssamın mədəni və bədii səviyyəsinin aşağı olması mütləq tamaşanın həcm-məkan formasını aşağı salacaq. Bu forma zəngin və məzmunlu olmalıdır. Pyesin ideya mahiyyətinin dərindən açılmasına təkcə rejissorla aktyor cavabdeh deyillər, bu cavabdehliyi onlarla tamaşanın rəssamı da paylaşdırır. [17]

*İkinci yarımfəsildə* 1920-1940-cı illərdə qoyulan tamaşaların teatr-dekorasiyası xüsusiyyətləri müəyyən olunur. XX əsrin əvvəllərində yaranmış Azərbaycan milli musiqili komediya janrının Üzeyir Hacıbəylinin “ Ər və arvad”la başlanan tarixi bəstəkarın “O olmasın, bu olsun” (1911), “Arşın mal alan” (1913) musiqili komediyaları ilə formalaşdı. İnqilaba qədər dövrdə həmçinin Z. Hacıbəyovun “Əlli yaşında cavan”, “Evliykən subay”, M. Kazımovskinin “Molla Cəbi”, “Vurhavur” musiqili komediyaları da tamaşaya qoyuldu. Bu dövrdə teatrda tərtibatçı rəssam kimi çıxış edən və zəngin milli ənənələrinə sadiq qalmış



Ə. Əzimzadə və R.Mustafayev özlərinin teatr dekorasiya eskizlərində müxtəlif xalqların elementlərinə də rast gəlirik.

Bu dövrdə geniş istifadə olan təhkiyə dekorasiyası səhnədə real həyat mənzərəsini canlandırırdı. Beləliklə, səhnə məkanı rəssam tərəfindən tamaşanın vaqe olduğu nəzərdə tutulan real yerə çevrilirdi.

Bu rəssamların fəaliyyəti dövründə tamaşaların bədii tərtibatında pavilyon prinsipi üstünlük təşkil edirdi. Səhnədə tavanı və divarları olan müfəssəl interyer qurulurdu. Şəkillər arasında müntəzəm olaraq pərdə qalxıb enirdi və tamaşaçı səbirlə bir dekorasiyanın digəri ilə əvəz olunmasını gözləyirdi. Lakin artıq XX əsrin ilk onilliyindən başlayaraq teatr rəssamları tədricən daha çox şərti dekorasiyaya üstünlük verməyə başlayırlar. 1920-ci illərdə konstruktivizm istiqaməti teatra da sirayət etdi. Bunu daha çox R. Mustafayevin qurduğu bədii tərtibatda rast gəlmək olur.

Beləliklə, öz fəaliyyəti ilə teatrda realistik prinsipləri qoruya bilmiş bu rəssamların obrazlı, emosional sənəti gənc teatr rəssamlarının yaradıcılığına böyük təsir göstərmişdir. Əsas məktəb olan Ə. Əzimzadə, R. Mustafayev ənənələri 1930-cu illərdən sonra da davam etmişdir.

Sovet hakimiyyəti qurulduqdan sonra milli teatrın inkişafı üçün geniş imkanlar yarandı. Əvvəllər Azərbaycan Opera və Balet Teatrında səhnəyə qoyulan musiqili komediyalar 1938-ci ilin sentyabr ayından rəsmi olaraq status almış Azərbaycan Dövlət Musiqili Komediya teatrının Azərbaycan və rus bölmələrində oynanıldı. 1939-cu ildə ilk Azərbaycan Sovet musiqili komediyası S. Rüstəmovun “Beş manatlıq gəlin”, “Ər və arvad”, “Evliykən subay”, sonralar isə A.

---

[17] Рындин В.Ф. Художник и театр – М.: ВТО, 1966, с.51.

Məşədibəyovun “Toy kimindir?”, S. Hacıbəyov “Qızıl gül”, teatrın rus bölməsində isə F. Leqarın “Mavi mazurka”, Üz. Hacıbəylinin “Arşın mal alan”, İ. Kalmanın “Sirk kraliçası”, B. Aleksandrovun “Malinovkada toy” və s. tamaşaya qoyulmuşdur.

Teatrın səhnəqrafiyasının inkişafi Ədhəm Sultanov, Həsənağa Mustafayev, Əsgər Abbasov və s. dəyərli rəssamların yaradıcılığı ilə bağlı olmuşdur. Rəssamlar müxtəlif zahiri dekorativlik üsullarına, tamaşa effektlərinə aludəçiliyə qalib gəlməyə çalışmışlar ki, bu da çox zaman onların ideya istiqamətinə zidd gedirdilər.

1940-cı illərdə teatrın repertuarı F.Əmirovun “Ürəkçalanlar” (1944) və “Gözün aydın” (1946), Üz. Hacıbəylinin “Arşın mal alan” (1945), “Məşədi İbad” (1946), S.Rüstəmovun “Durna” (1947), S.Ələsgərovun “Ulduz” (1948) operettaları ilə zənginləşdi. Bu illərdə monumental üslubun poetika göstəriciləri



əlaqəsi möhkəmləndi, yeni mövzular zənginləşdi. Teatr ideyaca yüksəldi, onda sosialist realizminin mövqeləri qüvvətləndi. Azərbaycan Musiqili Komediya Teatrında (AMKT) Ə.Sultanov, H.Mustafayev kimi tərtibat və geyim rəssamları səhnəqrafiya sahəsində uğurlu yaradıcılıq axtarışları aparırdılar. Bu illərdə teatrda rəssamlardan Əsgər Abbasov, Həsən Mustafayev, Fyodor Qusak, Sadıq Şərifzadə və başqaları işləmişlər. Teatrda yenidən şərti həllərin axtarışları başladı. Digər tərəfdən tamaşalarına əlvan tərtibatlar vermiş İsmayıl Axundov səhnə tərtibatlarında klassik üslubda işləməyə üstünlük verirdi.

1950-ci illərin Azərbaycan teatrının inkişafında ən mürəkkəb dövrlərdən biri kimi yadda qalmışdır. Xalqın təşəbbüskarlıq yolunda sərbəstlik yarandı, insanla cəmiyyət arasında əlaqələrin zənginləşməsinə səbəb olan şəxsiyyətə pərəstişlə əlaqədar estetik təsəvvürlər dəyişdi, realizmin imkanları genişləndi, sənətin təsvir vasitələri daha böyük əlvanlıq əsb etdi. Lakin yeni estetik formalaşdı və təbii ki, bu istiqamətdəki fəlsəfi axtarışlar səhnəqrafiyada da geniş vüsət almışdı.

XX əsrin 30-40-cı illərdə teatr sözün əsl mənasında təsvirçiliyə qayıtdı. Həmin illərdə səhnə tərtibatlarında səhnə məkanlarının naturalist təsvirlərinə üstünlük verilirdi. Geyimlərdə əlvanlıq və etnoqrafik dəqiqlik əsas götürülürdü. Həmin illərdə səhnə tərtibatlarında səhnə məkanlarının naturalist təsvirlərinə üstünlük verilirdi. Geyimlərdə əlvanlıq və etnoqrafik dəqiqlik əsas götürülürdü. Dekorların quraşdırılmasında tədricən mürəkkəb konstruksiyaların istifadəsindən imtina edildi. Səhnədən müəyyən məkan bildirən arxalıq və yanlıq pərdələri asılırdı. Qalxıb-enən ştangetlər məkan dəyişməsində vaxt azlığına imkan yaradırdı. Rəssamlar daha çox isti rənglərdən istifadə edir, milli koloriti saxlamağa və forma yeniliyinə nail olmağa çalışırdılar.

**<u>Fəsil II</u> – “1940-1980-cı illərdə Musiqili Komediya Teatrında səhnə tərtibatının əsas inkişaf istiqamətləri”** iki yarımfəsildən ibarətdir. *Birinci yarımfəsildə* 1940-1960-cı illərdə teatr-dekorasiya sənətində yeni təmayüllər araşdırılır. Böyük vətən müharibəsi dövrü Azərbaycan teatr tarixinə sovet vətənpərvərliyi və humanizm ruhu ilə aşılanmış böyük və gərgin fəaliyyət dövrü kimi daxil olmuşdur. Müharibə Azərbaycan milli teatr sənətində əhəmiyyətli dəyişikliklər əmələ gətirdi. Əlbəttə, bütün maddi və mənəvi qüvvələrin hərbi səfərbər edildiyi müharibə şəraitində təbii görünən bəzi itkilər də oldu: teatrın maddi imkanları azaldı, repertuar problemi meydana çıxdı. Bu isə həm dramaturgiyanın, həm də səhnə təcəssümünün keyfiyyətinə, tələbatın azalmasına gətirib çıxardı. Bununla belə, müharibə dövründə teatr sənətinin müasirliklə

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ АКАДЕМИЯ ХУДОЖЕСТВ

*На правах рукописи*

**СЕВИНДЖ МИКАИЛ кызы ГУСЕЙНОВА**

# СЦЕНОГРАФИЯ АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВЕННОГО ТЕАТРА МУЗЫКАЛЬНОЙ КОМЕДИИ

**Специальность: 6215.01- Изобразительное искусство**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии в области искусствоведения

**БАКУ – 2013**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI**

*Əlyazma hüququnda*

**SEVİNC MİKAYIL qızı HÜSEYNOVA**

**AZƏRBAYCAN DÖVLƏT MUSİQİLİ KOMEDİYA TEATRININ SƏHNƏQRAFİYASI**

**İxtisas: 6215.01 - Təsviri sənət**

sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

Dissertasiya işi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Rəssamlıq fakültəsinin "Sənətşünaslıq" kafedrasında yerinə yetirilmişdir/

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Sevil Yusif qızı Sadıxova**<br>**sənətşünaslıq üzrə elmlər doktoru** |
| **Rəsmi opponentlər:** | **Səlhab Isa oğlu Məmmədov**<br>**Xalq rəssamı, professor** |
| | **Fəridə İbrahim qızı Quliyeva**<br>**sənətşünaslıq üzrə fəlsəfə doktoru** |
| **Aparıcı təşkilat:** | **Azərbaycan Rəssamlar İttifaqı** |

Müdafiə **"30" yanvar 2014-cü il saat 11.00** Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində təşkil olunmuş FD.02.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1029, Bakı, H.Əliyev prospekti 26, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat "30" dekabr 2013-cü il tarixində göndərilmişdir.

**FD.02.191 Dissertasiya Şurasının**
**elmi katibi, sənətşünaslıq üzrə**
**fəlsəfə doktoru: X. Z. Əsgərova**

Sifariş № 328; tiraj100
"ADNA" mətbəəsində
çap olunmuşdur